

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 48 (21.200)

8 mart 2015-ci il, bazar

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyində və Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətində səyyari xidmət təşkil olunmuşdur






Muxtar respublikada müasir xidmət növlərinin yaradılması diqqət mərkəzində saxlanılır, dövlət orqanları tərəfindən vətəndaşlara yerlərdə hüquqi xidmətlərin göstərilməsi üçün zəruri tədbirlər görülür. Bu istiqamətdə həyata keçirilən tədbirlərin davamı olaraq, Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyində və Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətində yeni səyyari xidmət yaradılmışdır.

Martın 7-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov səyyari xidmət üçün xüsusi avadanlıqlarla təchiz edilmiş avtomobillərə baxmış, səyyari xidmətin təşkili ilə maraqlanmışdır.

Məlumat verilmişdir ki, səyyari xidmətin göstərilməsi üçün Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti üçün "NAZ-Lifan-6401", Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyi üçün "Hundai" markalı avtomobillər alınmışdır. Avtomobillər xidmət sahələrinə uyğun olaraq, səyyari xidmətin göstərilməsi üçün kompüter, POS-terminal, fotoaparat, elektron məsafəölçən və digər avadanlıqlarla təchiz edilmişdir. Məqsəd əhalinin mərkəzlərə gəlmədən və vaxt itkisinə yol vermədən hüquqi xidmətlərdən yararlanmasını təmin etməkdir.

Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin səyyari xidmət avtomobilinə baxış zamanı bildirilmişdir ki, əvvəllər müvafiq icra hakimiyyəti orqanları tərəfindən verilmiş mülkiyyət haqqında sənədlərin daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata alınması artıq yerlərdə həyata keçiriləcəkdir. Bunun üçün aylıq qrafiklər tərtib edilərək rayon icra hakimiyyətlərinə göndərilir, xidmət göstəriləcək yaşayış məntəqələrinin mülkiyyətçiləri və xəritə materialları sistemə yüklənir. Məlumat bazası xidmətin daha asan və operativ təşkilinə imkan verir. Səyyari xidmət zamanı, ilk növbədə, vətəndaşların ərizələri qəbul olunur və məlumat bazası üzrə uyğunluğu yoxlanılır. Bundan sonra qəbul edilmiş sənədlər rayon şöbələri tərəfindən elektron sistemə salınaraq təsdiq üçün xidmətin mərkəzi aparatına göndərilir. Burada daşınmaz əmlak dövlət reyestrində qeydiyyata alınaraq çıxarış hazırlanır, kağız və elektron variantlarda arxiv yaradılır. Bütün proseslər tamamlandıqdan sonra hazırlanan sənədlər vətəndaşlara çatdırılır.

Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin səyyari xidmət avtomobili vasitəsilə yerlərdə vətəndaşlara 5 hüquqi xidmət – ümumvətəndaş pasportlarının və şəxsiyyət vəsiqələrinin verilməsi və dəyişdirilməsi, sürücülük vəsiqələrinin dəyişdirilməsi, məhkumluq haqqında və arxiv arayışlarının verilməsi, ov silahlarının qeydiyyata alınması üzrə xidmətlər göstəriləcəkdir. Nazirliyin səyyari xidmət avtomobilində quraşdırılan müasir avadanlıqlar ümumvətəndaş pasportlarının, şəxsiyyət və sürücülük vəsiqələrinin yerlərdə vətəndaşlara təqdim olunmasına imkan verəcəkdir.

Hər iki səyyari xidmət avtomobili kənd mərkəzlərinin yaxınlığında fəaliyyət göstərəcək, xidmətlərə görə rüsumlar POS-terminal və yerlərdəki poçt şöbələri vasitəsilə ödəniləcəkdir. Həmçinin yaşayış məntəqələrində səyyari xidmətin göstərilməsi barədə əvvəlcədən elanlar vurulacaq və sakinlər arasında müvafiq maarifləndirmə işləri aparılacaqdır.

Ali Məclisin Sədri səyyari xidmətin təşkili və təkmilləşdirilməsi ilə bağlı aid orqanlara müvafiq tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvanda Beynəlxalq Qadınlar Günü qeyd edilib

***Dünən 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında bayram tədbiri keçirilib. Tədbir iştirakçıları əvvəlcə teatrın foyesində istedadlı qadınların əl işlərindən ibarət sərgiyə baxıblar.***





Bayram tədbirində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Rəhman Məmmədov Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 6 mart 2015-ci il tarixli "Naxçıvan Muxtar Respublikasında qadınların bir qrupunun təltif edilməsi haqqında" Sərəncamını oxuyub. Sonra "Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə" və "Rəşadətli əməyə görə" nişanları ilə təltif olunan qadınlara nişanlar təqdim edilib.

Təltif olunanlar əməklərinə verilən yüksək qiymətə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə öz minnətdarlıqlarını bildiriblər.

Sonra Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Səfərov çıxış edərək bildirib ki, Azərbaycan xalqı tarixən özünəməxsus dəyərlərə, adət-ənənələrə bağlı olan yüksək zəkalı, nəcib, xeyirxah və qəhrəman xanımları ilə qürur duyub, qadına dərin hörmət və böyük ehtiram göstərib. Tariximizin hər bir dövründə qadınlarımız cəmiyyətin sarsılmaz mənəvi dayağı olub, adət-ənənələrimizin yaşadılması və nəsillərdən nəsillərə çatdırılması yolunda müdriklik nümayiş etdirib, torpaqlarımızın ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə kişilərlə bərabər bir sırada dayanıblar.

Azərbaycanın, eləcə də onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının çiçəklənməsində, inkişafında qadınlarımız əllərindən gələni əsirgəmirlər.

Muxtar respublikamızda qadınların bütün sahələrdə təmsil olunmaları üçün lazımi şəraitin yaradıldığını, onların qayğı və problemlərinin diqqətdə saxlanıldığını bildirən Vüqar Səfərov əlamətdar gün münasibətilə qadınları təbrik edib.

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Cavid Səfərov çıxış edərək xüsusi qayğıya ehtiyacı olan qadınların sosial müdafiəsini gücləndirmək məqsədilə həyata keçirilən tədbirlərdən danışıb.

Qeyd olunub ki, hazırda muxtar respublikamızda yaşayan 429 sağlamlıq imkanları məhdud və ahıl qadına evdə sosial məişət xidməti göstərilir, bu kateqoriyadan olan şəxslərlə evlərdə mütəmadi olaraq görüşlər keçirilir, onların tibbi müayinədən keçmələri təmin olunur, məişət şəraitləri yaxşılaşdırılır, nümunəvi ailələrin yubiley tədbirləri qeyd olunur, muxtar respublikanın uzunömürlü sakinləri ilə görüşlər təşkil edilir. Ahıllar evinin qadın sakinlərinə də yüksək qayğı göstərilir, onların sosial reabilitasiyası və sağlamlıqlarının qorunması daim diqqət mərkəzində saxlanılır.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 18 dekabr 2013-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrası istiqamətində keçirilən tədbirlərə uyğun olaraq, qadınların məşğulluğunun təmin olunması diqqət mərkəzində saxlanılır. Məşğulluq xidməti orqanları tərəfindən ötən il 576 qadın müvafiq işlə təmin edilib. Bununla yanaşı, xalqımızın zəngin incəsənət nümunələrini, habelə milli mətbəximizin incəliklərini öyrənmək və yaşatmaq məqsədilə işaxtaran qadınlarımız müvafiq peşələr üzrə kurslara da cəlb edilirlər. Ötən il ərzində əmək bazarının tələbləri nəzərə alınaraq, rəqabətqabiliyyətli ixtisaslar, habelə xidmət sahələri, milli və xalq tətbiqi sənəti növləri üzrə peşə hazırlığı kurslarını 132 qadın bitirib.

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova çıxışında deyib ki, hazırda Naxçıvan Muxtar Respublikasında qadınların cəmiyyətin ictimai-siyasi həyatında getdikcə artan rolu və mövqeyi milli dövlətçilik tariximizin ən böyük uğurlarındandır.

Bildirilib ki, muxtar respublika əhalisinin 50,18 faizini qadınlar təşkil edir. Onlardan 32,37 faizi 18 yaşadək, 67,63 faizi 18 yaşdan yuxarı, 3,36 faizi sağlamlıq imkanları məhdud qadınlar, eləcə də 2660 nəfəri qaçqın və məcburi köçkün, 424 nəfəri xidmətdə olan ahıl, 125 nəfəri şəhid ailəsinin üzvü olan, 14 nəfəri isə sahibkar qadınlardır. Muxtar respublikada bütün kateqoriyalardan olan qadınlar dövlətin diqqətindədir. Qaçqın və məcburi köçkün qadınların mənzil şəraitləri yaxşılaşdırılır, sağlamlıq imkanları məhdud qadınların cəmiyyətə inteqrasiyası üçün müvafiq tədbirlər görülür, sosial vəziyyətləri ümumi yaşayış standartlarına uyğunlaşdırılır, pensiyaları vaxtlı-vaxtında ödənilir, tənha ahıl qadınlara sosial xidmətlər göstərilir, şəhid ailələrinin üzvü olan qadınlara həssaslıqla yanaşılır, onların problemləri dərhal həll edilir, sahibkar qadınlara dövlətin dəstəyi günbəgün artırılır, bir sözlə, muxtar respublikada intibahın şəfəqləri hər bir qadının həyatını işıqlandırır.

Abadlığın, yeniliyin və quruculuğun hökm sürdüyü muxtar respublikada müasirtipli təhsil müəssisələrinin, tibb ocaqlarının tikilib istifadəyə verilməsi qadınların da ümumi təhsil və biliklərinin yüksəldilməsinə, sağlamlıqlarının qorunmasına müsbət təsirini göstərib. Ali təhsil müəssisələrində yüksək göstərici ilə qəbul olunanların əksəriyyətinin qızlar təşkil etməsi, ana ölümü hallarının minimuma endirilməsi qeyd olunanların sevindirici nəticələridir.

Muxtar respublikada qadınların fəaliyyəti dövlətimiz tərəfindən yüksək qiymətləndirilir. Təkcə 2014-cü ildə 63 nəfər qadın fəxri adlara, mükafatlara layiq görülüb, medal və nişanlarla təltif edilib.

Bayram tədbirində AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun böyük elmi işçisi Zülfiyyə İsmayıl, Heydər Əliyev adına Hərbi Liseyin tarix müəllimi Mehri Qasımova çıxış edərək qadın ucalığından, muxtar respublikada qadınların ictimai fəallıqlarından danışıblar.

Sonra Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən müxtəlif nominasiyalar üzrə səmərəli fəaliyyətlərinə görə fərqlənən qadınlara diplomlar və hədiyyələr verilib.

Tədbirin bədii hissəsində Naxçıvan Şəhər Mədəniyyət və Turizm Şöbəsinin "Şəlalə" instrumental ansamblı solistlərinin, Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin "Əlvan çiçəklər" mahnı və rəqs qrupunun, Naxçıvan şəhər 11 nömrəli uşaq bağçasının balaca fidanlarının çıxışları olub.

**Sara ƏZİMOVA**

# Muxtar respublikanın bütün rayonlarında Beynəlxalq Qadınlar Günü münasibətilə tədbirlər keçirilib

## Şərur rayonu



Şərur rayonunda 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə keçirilən tədbirdə çıxış edən İcra Hakimiyyətinin başçısı İbrahim Məmmədov bildirib ki, Azərbaycan xalqı həmişə qadına, onun cəmiyyətimizin həyatında oynadığı rola, tutduğu yüksək mövqeyə böyük hörmətlə yanaşıb. Daim zəkası və möhkəm iradəsi ilə seçilən Azərbaycan qadınlarının fəaliyyətini yüksək qiymətləndirən ümummilli liderimiz Heydər Əliyev onlara böyük qiymət verərək deyirdi: ***“Qadınlar dövlətimizin, müstəqilliyimizin, bu günümüzün dayağıdır”.***

Şərur Rayon Birləşmiş Həmkarlar Komitəsinin sədri Ünbülbanu Musayeva bildirib ki, bu gün Azərbaycan qadınları nəinki ölkə daxilində, hətta beynəlxalq aləmdə ölkəmizin adına layiq işlər görürlər. Onların əməyi dövlətimiz tərəfindən yüksək qiymətləndirilir. Bu cəhətdən Şərur qadınları da istisna deyil. Bu gün rayonda qadınların sayı 56 min 282 nəfərdir. Bu isə ümumi əhalinin 50,6 faizini təşkil edir. İşləyən qadınların sayı 5291 nəfərdir. Onlardan 133 nəfəri dövlət qulluğunda çalışır. Təhsil sahəsində çalışan qadınların sayı daha çoxdur. 1926 qadın gələcəyimiz olan uşaqların təlim-tərbiyəsi ilə məşğuldur. Mədəniyyət sahəsində işləyən qadınlar da çoxdur. 634 nəfər şərurlu qadın rayonun və hətta muxtar respublikanın mədəni həyatında fəal iştirak edir.

Vurğulanıb ki, şərurlu qadınların da əməyi dövlətimiz tərəfindən yüksək qiymətləndirilib. Qadınların 8 nəfəri Azərbaycan Respublikasının Əməkdar müəllimi, 1 nəfəri Əməkdar mədəniyyət işçisi, 1 nəfəri Əməkdar səhiyyə işçisi, 1 nəfəri Prezident təqaüdçüsü, 7 nəfəri Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi, 2 nəfəri Əməkdar mədəniyyət işçisi, 2 nəfəri Əməkdar dövlət qulluqçusu, 1 nəfəri Əməkdar səhiyyə işçisidir. Qadınların 4 nəfəri “Tərəqqi” medalına layiq görülüb.

Tədbirdə qadınlara hədiyyələr verilib, “Arpaçay” instrumental ansamblının çıxışı tədbir iştirakçılarına xoş ovqat bəxş edib.

## Ordubad rayonu

***Ordubad rayonunda da Beynəlxalq Qadınlar Günü münasibətilə bayram tədbiri keçirilib.***

Tədbirdə Ordubad Rayon İcra Hakimiyyətinin başçısı Elşad Məmmədov qeyd edib ki, təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulan və bu gün uğurla həyata keçirilən dövlət qadın siyasəti ictimai-siyasi həyatda qadınlarımızın rolunu daha da artırıb. Həyatımızın elə bir sahəsi yoxdur ki, orada qadınların iştirakı təmin olunmasın. Məhz həyata keçirilən uğurlu siyasətin nəticəsidir ki, bu gün muxtar respublikada, eləcə də Ordubad rayonunda qadınlar müxtəlif dövlət orqanlarında çalışırlar.

Vurğulanıb ki, hazırda rayonda müxtəlif sahələrdə 1895 qadın çalışır. Onların da 48 nəfəri məsul vəzifələri icra edir. Son illərdə rayonun ictimai həyatında fərqlənən qadınlardan 19 nəfər müxtəlif fəxri adlarla təltif olunub.



Bayram tədbirində Yeni Azərbaycan Partiyası Ordubad Rayon Təşkilatının sədri Qürbət Rzayevin, Ordubad Rayon Tarix-Diyarşünaslıq Muzeyinin direktoru Vilayət Bağırovun, Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi Firuzə Əsgərovanın və Azərbaycan Respublikasının Əməkdar müəllimi Səkinə Tağıyevanın çıxışları olub. Çıxış edənlər zəriflik və gözəllik rəmzi olan qadın, ana adının tarixboyu Vətənimizdə həmişə uca tutulduğunu, Azərbaycan qadınının bütün dövrlərdə milli-mənəvi dəyərlərimizin qorunub saxlanması və yaşadılmasında mühüm xidmətlər göstərdiyini, Azərbaycanda qadına daim böyük hörmət bəslənildiyini qeyd ediblər.

Tədbir rayon Mədəniyyət Evinin “Dübəndi” instrumental ansamblının solistlərinin, rayonun kəndlərində fəaliyyət göstərən mədəniyyət evlərinin rəqs qruplarının, Ordubad Rayon Xalq Teatrı üzvlərinin rəngarəng çıxışları ilə yadda qalıb.

Sonda qadınlara hədiyyələr təqdim edilib.

## Kəngərli rayonu



***Kəngərli rayonunda da Beynəlxalq Qadınlar Günü münasibətilə tədbir keçirilib.***

Qarabağlar kənd 1 nömrəli tam orta məktəbin binasında keçirilən tədbirdə rayon İcra Hakimiyyətinin başçısı Ramiz Cəfərov çıxış edərək bildirib ki, dövlət müstəqilliyimizin bərpasından ötən dövr ərzində Azərbaycan qadını milli dövlət quruculuğu prosesinin fəal iştirakçısına çevrilib, ölkəmizin sosial-iqtisadi, intellektual-mədəni potensialının artırılmasına dəyərli töhfələr verib. Dövlətimiz tərəfindən hər zaman qadın adı uca tutulur, onların hüquq və azadlıqları qorunur, zəhmətləri layiqincə qiymətləndirilir. Bu gün muxtar respublikamızın, eləcə də Kəngərli rayonunun dövlət və özəl qurumlarında işləyən qadınlar öz xidmətləri ilə ümumi inkişafımıza böyük töhfələr verirlər.

Qeyd edilib ki, rayonun yaradılmasından keçən son 11 il ərzində təhsil, səhiyyə və mədəniyyət sahələrində qazanılan uğurlarda qadınların rolu böyük olub. Rayonun dövlət strukturlarında 800 nəfərdən artıq qadın işləyir. 7 nəfər qadın məsul vəzifə daşıyır. Son illər rayonda müxtəlif sahələrdə fəaliyyət göstərən qadınlardan 8-i fəxri ada layiq görülüb.

Sonra Təzəkənd tam orta məktəbinin müəllimi Bəyim Babayevanın və Qarabağlar kənd 1 nömrəli tam orta məktəbin müəllimi Gülçin Cəfərovanın çıxışları olub. Çıxış edənlər qadınlara göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

Tədbirdə rayonun musiqi kollektivlərinin çıxışları olub, qadınlara hədiyyələr təqdim edilib.

## Şahbuz rayonu

***Şahbuz rayonunda keçirilən bayram tədbirini rayon Mədəniyyət Evinin direktoru Ramiz Cəlilov açıb.***

Şahbuz Rayon İcra Hakimiyyətinin başçısı Nurəddin Quliyev çıxış edərək vurğulayıb ki, muxtar respublikamızda bir çox sahələrdə çalışanların böyük bir hissəsini qadınlar təşkil edir. Şahbuz rayonunda da qadınların ictimai-mədəni həyatda iştiraklarının təmin olunması diqqət mərkəzində saxlanılır. Bu gün Şahbuz rayonunda yaşayan qadınlar öz bilik və bacarıqlarını realizə etmək imkanlarına malikdirlər. Təhsil, səhiyyə, mədəniyyət sahələri ilə yanaşı, qadınlarımız həm də hüquq-mühafizə, məhkəmə və digər orqanlarda uğurlu fəaliyyət göstərirlər.

Sonra Yeni Azərbaycan Partiyası Şahbuz Rayon Təşkilatının sədri Rizvan Məmmədov, rayon İcra Hakimiyyəti başçısının müavini Mətanət Məmmədova və Şahbuz şəhər 1 nömrəli tam orta məktəbin müəllimi Növrəstə Xudiyeva çıxış ediblər.



Qeyd olunub ki, dövlət müstəqilliyimizin bərpasından sonra ötən müddət ərzində Azərbaycan qadını milli dövlət quruculuğu prosesinin fəal iştirakçısına çevrilib, ölkəmizin sosial-iqtisadi, intellektual-mədəni potensialının artırılması üçün dəyərli töhfələr verib, elm və təhsil, səhiyyə və mədəniyyət, eləcə də digər sahələrdə qazandığı uğurları ilə o, öz nüfuzunu ilbəil artırmağa müvəffəq olub. Vətəndaş cəmiyyəti quruculuğu istiqamətində qadınlarımızın nailiyyətləri məmnunluq hissi doğurur. Ölkəmizdəki sabitlik və demokratik mühit qarşıdakı illərdə də onlara öz fitri istedadlarını, yaradıcılıq imkanlarını tam gerçəkləşdirə bilmələri üçün bütün lazımi şəraiti təmin edir.

Bayram tədbiri rayon Mədəniyyət Evinin instrumental ansamblının ifasında konsert proqramı ilə davam edib.

Sonda qadınlara hədiyyələr verilib.

## Babək rayonu



***Beynəlxalq Qadınlar Günü Babək rayonunda da qeyd olunub. Babək Rayon Mədəniyyət Evində keçirilən tədbirdə rayon İcra Hakimiyyətinin başçısı Elçin Hüseynəliyev çıxış edərək bildirib ki, ölkəmizin sürətli iqtisadi və siyasi inkişafı Azərbaycan qadınlarının ictimai həyatın bütün sahələrində fəal iştirakı üçün imkanlar yaradıb.***

Qeyd olunub ki, ölkəmizdə qadın siyasətinin əsas prinsiplərinin müəyyən edilməsi və dövlət səviyyəsinə qaldırılması ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndər Heydər Əliyev qadın hüquqlarının müdafiəsini öz siyasi fəaliyyətinin tərkib hissəsi hesab edib, milli qadın hərəkatının formalaşması üçün böyük işlər görüb. Azərbaycan qadını həm həkim, müəllim, həm memar, dövlət qulluqçusu, ictimai-siyasi xadim, hərbçi, həm də qayğıkeş bir ana, vəfalı həyat yoldaşıdır. Cəmiyyətimizin bir çox sahələrində çalışanların böyük bir hissəsini qadınlar təşkil edir. Elə muxtar respublikamızda da qadınların ictimai-siyasi sahədə fəal iştirakına geniş imkanlar yaradılır, qadın əməyi yüksək qiymətləndirilir. Babək rayonunun təhsil, səhiyyə, mədəniyyət və digər sahələrində çalışan qadınlarımız öz bilik və bacarıqları, işgüzarlıqları və ictimai-siyasi həyatdakı fəaliyyətləri ilə hər zaman seçilirlər. Bunun da nəticəsi olaraq, qadınların əməyi dövlətimiz tərəfindən yüksək qiymətləndirilir.

Tədbirdə Yeni Azərbaycan Partiyası Babək Rayon Təşkilatının sədri İsa Məmmədov, “Şərqin səhəri” qəzetinin redaktoru Hafizə Əliyeva, Cəhri kənd Uşaq musiqi məktəbinin müəllimi Validə Hüseynova və başqaları çıxış edərək qadınları əlamətdar gün münasibətilə təbrik ediblər.

Tədbirin bədii hissəsində Babək Rayon Mədəniyyət Evinin “Zabul” instrumental ansamblının ifa etdiyi musiqi nömrələri alqışlarla qarşılanıb.

Sonda qadınlara hədiyyələr təqdim olunub.

## Culfa rayonu



Beynəlxalq Qadınlar Günü münasibətilə Culfa rayonunda keçirilən tədbiri rayon İcra Hakimiyyətinin başçısı Şükür Babayev açıb. Bildirilib ki, Azərbaycan xanımları öz dərin zəkaları və tükənməz daxili potensialları ilə bu gün xalqa və cəmiyyətə fədakarcasına xidmət edirlər.

Qeyd olunub ki, qadın ana olmaqla yanaşı, eyni zamanda ictimai fəaliyyəti ilə cəmiyyətin əsas dayaqlarından biri olaraq, həm də sosial proseslərin aktiv hərəkətverici qüvvəsi kimi çıxış edir. Yeni əsrin Azərbaycan qadını milli dəyərləri öz simasında ehtiva etməklə bərabər, həm də müasir proseslərlə ayaqlaşaraq intellektual səviyyəsini daim artırır, yüksək təhsilə malik, kamil şəxsiyyət kimi formalaşır. Həyatımızın elə bir sahəsi yoxdur ki, orada qadınların iştirakı təmin olunmasın. Qadınlarımız bu gün Azərbaycanımızda gedən ictimai, siyasi, iqtisadi, mədəni proseslərdə fəal iştirak edir, dövlətimizin hərtərəfli inkişafına öz töhfələrini verirlər. Dövlətimizin həyata keçirdiyi məqsədyönlü siyasət nəticəsində bu gün Culfa rayonunda da qadınların hərtərəfli inkişafı üçün zəruri şərait yaradılıb. İndi elə bir ixtisas, elə bir sahə tapmaq olmaz ki, orada qadın əməyi təmsil olunmasın.

Dövlətimizin qadınlara göstərdiyi böyük qayğı müqabilində qadınların da daim cəmiyyət həyatında aktiv fəaliyyət göstərəcəyinə əminliyini bildirən icra başçısı onları təbrik edib, ictimai və şəxsi həyatda uğurlar arzulayıb.

Culfa şəhər 3 nömrəli tam orta məktəbin müəllimi Məsmə Əliyeva göstərilən diqqət və qayğıya görə minnətdarlığını bildirib, bundan sonra da Vətənimizin hərtərəfli inkişafı üçün əllərindən gələni əsirgəməyəcəklərini deyib.

Sonra tədbirdə iştirak edən qadınlara hədiyyələr təqdim olunub.

Bayram tədbiri rayon Mədəniyyət Evinin və Culfa Şəhər Uşaq musiqi məktəbinin yaradıcı kollektivlərinin çıxışları ilə davam etdirilib.

## Sədərək rayonu



Sədərək Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə Beynəlxalq Qadınlar Günü münasibətilə keçirilən tədbiri rayon İcra Hakimiyyətinin başçısı Həbib İbrahimov açıb. Bildirib ki, cəmiyyətin aparıcı qüvvəsi kimi Azərbaycan qadını ölkəmizin ictimai-siyasi həyatında həmişə fəal olub. Qadınlarımız tarixboyu həmişə sədaqəti, mərdliyi ilə seçilib, milli-mənəvi dəyərlərimizin qorunub saxlanılmasında üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetiriblər. Azərbaycanda dövlət qadın siyasətinin həyata keçirilməsi ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Hələ ötən əsrin 70-80-ci illərində ölkəmizə rəhbərliyi dövründə qadınların ictimai fəallığının artırılması üçün mühüm addımlar atan ulu öndər 1993-cü ildə ölkəmizdə ikinci dəfə ali hakimiyyətə qayıdışından sonra bu xətti yeni məzmunda, müstəqillik dövrünün tələblərinə uyğun davam etdirib. Bu gün ölkə başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda dövlət qadın siyasəti yüksəliş mərhələsinə qədəm qoyub.

Bildirilib ki, Naxçıvan Muxtar Respublikasında da ümummilli liderimizin müəyyənləşdirdiyi qadın siyasəti uğurla həyata keçirilir. Naxçıvanlı qadınlar yüksək vəzifələrə irəli çəkilir, öz işi ilə fərqlənənlərə dövlət mükafatları verilir, onların üzləşdikləri problemlərə həssaslıqla yanaşılır.

Sədərək rayon 1 və 2 nömrəli tam orta məktəblərin direktorları Gülnarə Hüseynova və Elmira Dadaşova rayonda qadınlara göstərilən diqqət və qayğıdan danışıblar.

Çay süfrəsi arxasında davam edən tədbirdə qadınlara hədiyyələr təqdim olunub.

Tədbir boyu rayon mədəniyyət müəssisələrinin musiqi kollektivləri rəngarəng repertuarla çıxış ediblər.

**Xəbərlər şöbəsi**

# "Dövlətin idarə olunmasında gənclərin rolu" mövzusunda dəyirmi masa

***Naxçıvan Dövlət Universitetində Yeni Azərbaycan Partiyası (YAP) Universitet şəhərciyi ərazi ilk təşkilatının təşəbbüsü ilə "Dövlətin idarə olunmasında gənclərin rolu" mövzusunda dəyirmi masa keçirilib.***

Universitetin müxtəlif fakültələrində təhsil alan fəal tələbə-gənclərin iştirak etdiyi dəyirmi masada YAP Universitet şəhərciyi ərazi ilk təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, dosent Kamal Camalov giriş sözü ilə çıxış edərək gənclərin ölkənin mədəni, ictimai-siyasi, iqtisadi həyatında müstəsna rol oynadığını bildirib, bunu dövlətin gənclər siyasətinin uğurları kimi dəyərləndirib. Qeyd olunub ki, artıq Azərbaycan gəncliyi cəmiyyətin inkişafında fəal sosial təbəqəyə çevrilib. Ölkə gəncləri demokratikləşmə prosesində fəal iştirak edir, müxtəlif sahələrdə parlaq nailiyyətlər qazanır, dövlətçilik ənənələrini daim uca tutur, çoxşaxəli islahatların reallaşdırılmasına yaxından iştirak edirlər.

Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının icra katibi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Anar İbrahimov çıxış edərək bildirib ki, dövlətçiliyin, müstəqilliyin daha da möhkəmləndirilməsi peşəkar kadrların yetişdirilməsindən, gənclərin cəmiyyətin bütün sferalarında iştirakından, onların aparıcı qüvvəyə çevrilməsindən çox asılıdır. Azərbaycanın dövlət siyasətində gənclərlə iş prioritet sahələrdən biridir. Gənclərlə iş sahəsində görülən tədbirlər Azərbaycan gəncliyinin inkişafına təkan verib, onların cəmiyyətdə özlərini təsdiq etmələrində böyük rol oynayıb. Təsadüfi deyil ki, artıq respublikamızda fəaliyyət göstərən gənclər təşkilatları, ictimai birliklər ölkəmizdə vətəndaş cəmiyyətinin qurulmasına töhfələrini verirlər.

Maraqlı diskussiya şəklində keçən dəyirmi masada gənclərin hüquq və azadlıqları, siyasi mövqeləri, milli ideologiyaya malik olmaları, idarəetmədə irəli çəkilən gənclərin vəzifələri, ali təhsil dövründə siyasi biliklərin dolğun mənimsənilməsi ilə bağlı məsələlər müzakirə olunub. Universitetin tələbə idman şurasının sədri, "pedaqogika" ixtisasının III kurs tələbəsi Nicat Allahverdiyev, "hüquq" ixtisasının IV kurs tələbəsi Vüsal Məmmədov, "yarımkeçiricilər fizikası" ixtisası üzrə magistrant Elgün Tağıyev, "fransız dili müəllimliyi" ixtisasının IV kurs tələbəsi Aytən İsmayılova, "dünya iqtisadiyyatı" ixtisasının III kurs tələbəsi Emil Zamanlı və digər tələbələrin fəal iştirakı ilə keçən diskussiyada bildirilib ki, Azərbaycanın gənclərlə bağlı dövlət siyasətinin müəyyənləşdirilməsi ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndərimiz Azərbaycan gənclərinin cəmiyyətin inkişafında və öz problemlərinin həllində rolunu artırmağı, ölkənin gələcək inkişafında iştirakını və məsuliyyətini yüksəltməyi, paytaxt və regionlarda yaşayan gənclərin fikir mübadiləsinə şərait yaradılmasını daim diqqət mərkəzində saxlayıb. Məhz ulu öndər Heydər Əliyevin bünövrəsini qoyduğu siyasətin uğurlu davamının nəticəsidir ki, bu gün gənclərimiz ölkənin ictimai-siyasi həyatında aktiv iştirak etməklə beynəlxalq miqyasda da əhəmiyyətli uğurlar qazanırlar. Ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən 2005-ci ildə təsdiq edilmiş Azərbaycan gəncliyi 2005-2009-cu illərdə və 2011-ci ildə təsdiq olunmuş Azərbaycan gəncliyi 2011-2015-ci illərdə Dövlət proqramları dövlət başçısının Azərbaycan gəncliyinə münasibətinin parlaq təzahürüdür.

YAP Naxçıvan Muxtar Respublika Təşkilatının icra katibi Anar İbrahimov, YAP Universitet şəhərciyi ərazi ilk təşkilatının sədri Kamal Camalov və təşkilatın sədr müavini, tarix üzrə fəlsəfə doktoru Şamxal Məmmədov, eləcə də universitet müəllimləri tələbələri maraqlandıran sualları cavablandırıblar. Dəyirmi masanın yekununda qərara alınıb ki, ayda bir dəfə müxtəlifsəpkili mövzulara həsr olunmuş beynəlxalq klub keçirilsin, tələbələrin siyasi yetkinliyinə, onlar arasında siyasi, elmi bilik və təcrübələrin bölüşülməsinə nail olunsun.

**Mehriban SULTAN**

*10 mart Azərbaycanda Qızıl Aypara Cəmiyyətinin yarandığı gündür*

# Naxçıvan Muxtar Respublikası Qızıl Aypara Komitəsi xeyirxah missiyanın öhdəsindən layiqincə gəlir

***Hər il mart ayının 10-u Azərbaycan Respublikasında "Qızıl Aypara Günü" kimi qeyd olunur.***

Xeyirxah əməllərin carçısı olan bu cəmiyyətin yaranma tarixi XIX əsrin ortalarına təsadüf edir. 1859-cu ildə İtaliyanın şimalında yerləşən bir kənddə fransız və italyan əsgərlərinin avstriyalılarla müharibəsi zamanı bir neçə saat ərzində 40 minə yaxın insan xəsarət almış və əksəriyyəti aldığı yaralardan həlak olmuşdur. Yaraların çəkdiyi əzab və iztirablara dözməyən isveçrəli Anri Dünan qonşu kəndin sakinlərinə müraciət etmiş, onları millətindən asılı olmayaraq, hər bir insana kömək etməyə çağırmışdır. Əksəriyyəti qadınlardan ibarət olan kiçik dəstələr bu nəcib işə qoşularaq xeyirxah bir missiyanı yerinə yetirmişlər. Uzun müddət bu dəhşətli mənzərənin təsirindən çıxa bilməyən Anri Dünan vətəni İsveçrəyə qayıdarkən "Solferino haqqında xatirələrim" adlı kitabını nəşr etdirir. Bu kitabda müəllif, konkret olaraq, bir neçə təklif, o cümlədən hər bir ölkədə müharibə zamanı millətindən asılı olmayaraq, yaralılara kömək etmək məqsədilə könüllü cəmiyyətlərin yaradılması ideyasını irəli sürmüşdü. Bu ideya hər bir ölkədə milli cəmiyyətlərin yaranmasına gətirib çıxarmış, sonralar isə bu hərəkat genişlənərək 1919-cu ildə Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının yaradılması ilə nəticələnmişdir.

Ölkəmizdə Qızıl Aypara Cəmiyyətinin yaradılması 1920-ci il mart ayının 10-na təsadüf etmişdir. Həmin il Azərbaycan Xalq Cümhuriyyətinin Müdafiə naziri, general-leytenant Əliağa Şıxlınskinin təşəbbüsü ilə təsis edilən cəmiyyət özünəməxsus inkişaf yolu keçmişdir. Cəmiyyət yarandığı gündən xeyirxah ideyaları ilə insanlığın himayədarına çevrilmiş, kimsəsizlərə, fəlakətlə üz-üzə dayananlara, ehtiyacı olanlara kömək etmişdir. Lakin 1920-ci ilin aprelində Azərbaycanda sovet hökuməti qurulduqdan sonra Qızıl Aypara Cəmiyyəti də öz fəaliyyətini itirmişdir. 1923-cü ildə yenidən təsis olunan qurum 1991-ci ilədək SSRİ Qırmızı Xaç və Qızıl Aypara Cəmiyyətinin tərkibində fəaliyyətini davam etdirmişdir.

Ümummilli liderimiz Heydər Əliyev ikinci dəfə siyasi hakimiyyətə qayıtdıqdan sonra ölkəmizin suveren hüquqları və müstəqillik ideyaları möhkəmləndirilmiş, bütün sahələrlə bərabər, Azərbaycan Qızıl Aypara Cəmiyyətinə də dövlət qayğısı artmışdır. Belə ki, Azərbaycan Respublikası Milli Məclisinin qərarı ilə bu cəmiyyət ölkəmizdə yeganə rəsmi humanitar təşkilat kimi tanınmış, 1995-ci il noyabr ayının 27-də Azərbaycan Qızıl Aypara Cəmiyyəti Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının tam bərabərhüquqlu və daimi üzvü qəbul edilmişdir. Bundan sonra beynəlxalq təcrübəni mənimsəyərək yeni inkişaf mərhələsinə qədəm qoyan cəmiyyət humanitar təşkilat kimi regionda və dünyada tanınmışdır.

Qeyri-hökumət təşkilatı olan Qızıl Aypara Cəmiyyəti dövlətin daim diqqət və qayğısı əhatəsindədir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Azərbaycan Qızıl Aypara Cəmiyyətinə dövlət qayğısının artırılması haqqında" 2004-cü il 31 yanvar tarixli Sərəncamı bu sahənin inkişafında mühüm rol oynamışdır. Qeyd olunan sərəncamların qarşıya qoyduğu konkret tapşırıqların icrası çərçivəsində Qızıl Aypara Cəmiyyətinin maliyyə və maddi-texniki bazası yaxşılaşdırılmış, yerli icra hakimiyyəti və özünüidarəetmə orqanlarının cəmiyyətin yerli təşkilatlarının sosial, tibbi sağlamlıq və xeyriyyəçilik proqramlarının həyata keçirilməsinə köməklik etməsi təmin olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Qızıl Aypara Komitəsi də dövlətin diqqət və qayğısından kənarda qalmamış, hər ötən il daha da inkişaf etmişdir. 2008-ci ildə komitə yeni inzibati bina və xidməti avtomobillərlə təmin edilmişdir. Həmçinin Ali Məclis Sədrinin sərəncamları ilə Naxçıvan Muxtar Respublikası Qızıl Aypara Komitəsində çalışanların əməkhaqları 2008-ci ildə 25 faiz, 2010 və 2011-ci illərdə isə orta hesabla 10 faiz artırılmışdır.

Tərkibində 1 şəhər və 7 rayon bölməsi fəaliyyət göstərən komitənin 578 ilk təşkilatı və 36 minə yaxın üzvü vardır. Hazırda komitə öz işini 4 şöbə əsasında qurur. Belə ki, Axtarış xidməti şöbəsi Stalin repressiyası, İkinci Dünya müharibəsi və miqrasiya zamanı itkin düşənlərin axtarışı, eləcə də qaçqın və məcburi köçkünlər üçün lazımi sənədlərin bərpası ilə məşğul olur. Komitənin Gənclər və könüllülərlə iş şöbəsi gələcəyimiz olan gənclərin sağlam həyat tərzinin təmin olunması məqsədilə idman, gigiyena, təmizlik, təbiətin mühafizəsi kimi tədbirlər həyata keçirir. Həmçinin şöbənin əməkdaşları yeniyetmə və gənclərə fövqəladə hallarda ilkin tibbi yardımın göstərilməsi dair məlumatlar verirlər.

Təşkilati iş şöbəsi muxtar respublikada fəaliyyət göstərən idarə və müəssisələrdə komitənin ilk təşkilatlarını yaradır, şəhər və rayon bölmələrinin işinə nəzarəti həyata keçirir. Bununla yanaşı, Qızıl Aypara hərəkatı haqqında seminar-treninqlər təşkil edilməsi də bu şöbənin əsas vəzifələrindəndir. Digər şöbə isə, əsasən, fövqəladə hallarla bağlı əhalinin maarifləndirilməsi işini təşkil edir.

Bir sözlə, Naxçıvan Muxtar Respublikası Qızıl Aypara Komitəsi 95 ildir, fəaliyyət göstərən cəmiyyətin üzvü kimi xeyirxah bir missiyanı uğurla yerinə yetirir, əhalinin maariflənməsinə öz töhfəsini verir, ehtiyacı olanlara dəstəyini əsirgəmir.

Komitənin kollektivi bundan sonra da üzərinə düşən vəzifənin öhdəsindən layiqincə gələcək və qarşıya qoyulan tapşırıqları vaxtında yerinə yetirəcəkdir.

***Naxçıvan Muxtar Respublikası Qızıl Aypara Komitəsi***

***Naxçıvan Muxtar Respublikası Ali Məclisində bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr mövzusunda keçirilən müşavirədə verilən tapşırıqların icrası ilə bağlı Şərur Rayon İcra Hakimiyyətində yığıncaq keçirilib.***

# 2015-ci il Şərurda idmanın kütləviliyi sahəsində dönüş ili olmalıdır



Tədbiri giriş sözü ilə rayon İcra Hakimiyyətinin başçısı İbrahim Məmmədov açıb.

Rayon Uşaq-gənclər və idman məktəbinin direktoru Cəmşid Əsədov, Şahmat məktəbinin direktoru Elmar Rzayev, Şərur şəhərindəki Olimpiya-İdman Kompleksinin direktoru Rza Camalov, rayon Gənclər və İdman İdarəsinin rəisi Ramil Dadaşov çıxış ediblər.

Naxçıvan Muxtar Respublikasının Təhsil naziri Piri Nağıyev, Gənclər və İdman naziri Azad Cabbarov çıxış edərək muxtar respublikada bədən tərbiyəsi və idmanın inkişafına göstərilən qayğıdan, qarşıya qoyulan vəzifələrdən danışıblar.

Şərur Rayon İcra Hakimiyyətinin başçısı İbrahim Məmmədov bildirib ki, hazırda rayonda 168 idman qurğusu mövcuddur. 52 ümumtəhsil məktəbində 94 sadə idman qurğusu və 52 idman zalı, 47 kənddə isə idman meydançası vardır.

Vurğulanıb ki, Şərur Olimpiya-İdman Kompleksi gənclərin və yeniyetmələrin ixtiyarındadır. Rayon Uşaq-gənclər idman və Şahmat məktəblərinin qapıları da şagirdlərin üzünə həmişə açıqdır. Rayonda əhalinin sağlam həyat tərzinin, xüsusən böyüməkdə olan gənc nəslin hərtərəfli inkişafının təmin edilməsində mühüm əhəmiyyətə malik olan bədən tərbiyəsi və idmanın inkişafına geniş yer verilir. Hazırda muxtar respublikada fəaliyyət göstərən 12 federasiyadan 11-nin fəaliyyəti rayonda təmin olunub.

2014-cü ildə idmanın müxtəlif növləri üzrə muxtar respublika birinciliklərində rayonun yeniyetmə futbolçuları I yerə, karate-do, yüngül atletika, boks üzrə komandaları isə II yerə layiq görülüblər. Bundan əlavə, Balakən rayonunda boks üzrə yeniyetmələr arasında keçirilən Azərbaycan birinciliyində şərurlu idmançı Kənan Şəfiyev III yeri tutub.

Futbol üzrə yeniyetmələr arasında Azərbaycan birinciliyində Şərur rayonunun komandası II nəticəni göstərib, "Arpaçay" futbol komandası 2013-2014-cü il futbol mövsümünü III pillədə başa vurub. 2014-cü ilin may ayında Ukraynanın Xarkov şəhərində yeniyetmələr arasında keçirilən kikboksinq üzrə dünya birinciliyində şərurlu idmançı Nail Hüseynov fəxri kürsünün ən yüksək pilləsində qərarlaşıb.

İcra başçısı diqqətə çatdırıb ki, idmanın kütləviliyinə nail olunması üçün idman və şahmat məktəblərinin kollektivləri məşqlərin müntəzəm keçirilməsinə, müxtəlif bölmələrin fəaliyyətinin gücləndirilməsinə, həmçinin ümumtəhsil məktəblərində idman və şahmat dərslərinin normal tədrisinə, ixtisaslı kadrların işə cəlb olunmasına diqqəti daha da artırmalıdırlar.

Qeyd edilib ki, rayon mərkəzində və kənd yaşayış məntəqələrində müasir idman zalları və sadətipli idman qurğuları olduğu halda, hələ də idmanın kütləviliyinə tam nail olunmayıb, federasiyaların rayon bölmələri işlərini günün tələbləri səviyyəsində qura bilməyiblər. Rayonun ucqar kəndlərində yaşayan idmançılar keçirilən yarışlara, demək olar ki, cəlb edilmirlər. Qızların idmana cəlbi də zəifdir. Rayonda üzgüçülüklə məşğul olmaq istəyən qadınlar da vardır. Ancaq onlar mütəxəssis olmadığına görə arzularını həyata keçirə bilmirlər. Tezliklə bu idman növü üzrə mütəxəssis hazırlanmasına ehtiyac vardır. Rayonun şahmatçıları ölkə, eləcə də muxtar respublika səviyyəsində keçirilən şahmat yarışlarında zəif təmsil olunurlar.

Ümumtəhsil məktəblərində fiziki tərbiyə dərsləri tam keyfiyyətlə keçilmir və ya bəzi idman müəssisələrinin peşəkarlıq səviyyəsi aşağı olduğundan idmanın sirləri yeniyetmə və gənclərə yetərincə öyrədilmir. Bütün bu nöqsanlar tezliklə aradan qaldırılacaq.

Sonda vurğulanıb ki, 2015-ci il rayonda idmanın kütləviliyinə nail olunmasında və bacarıqlı gənclərin respublika əhəmiyyətli yarışlara hazırlanmasında dönüş ili olmalıdır.

**Cəfər ƏLİYEV**

# Tibb müəssisələrinə yeni buklet və plakatlar paylanıb

Tibbi biliklərin yüksək səviyyədə olması sağlam cəmiyyətin yaradılması işində vacib amildir. Bu amil isə səhiyyə maarifi işinin təşkilindən xeyli dərəcədə asılıdır. Əhalinin təhlükəsiz həyat sürməsinə, sağlamlığın yaxşılaşdırılması və xəstəliklərin sayının azaldılmasına, eləcə də psixi sağlamlığın qorunması, ilk yardım vərdişlərinin aşılanmasına yönəldilən tədbirlər səhiyyə maarifi işinin əsasını təşkil edir. Bu məqsədlə muxtar respublikamızın səhiyyə işçiləri əhalinin müxtəlif təbəqələri ilə qarşılıqlı əlaqələr yaradır, onlarla söhbətlər aparır, təlim-məşğələlər təşkil edirlər.

Səhiyyə maarifi aparılarkən əyani vasitələrdən də geniş şəkildə istifadə olunur. Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi tərəfindən bu ilin fevral ayında uşaqların icbari dispanserizasiyasına aid 4 min ədəd buklet, 200 ədəd plakat, müxtəlif xəstəliklərə dair 9 min 720 ədəd müalicə protokolları, plakat, vərəqə və kitabçalar gətirilərək tibb müəssisələrinə paylanmışdır. Plakatlar Azərbaycan Respublikası Prezidentinin 10 dekabr 2013-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair Dövlət Proqramı"na, bukletlər "Ürək-damar xəstəliklərinin profilaktikası üzrə klinik protokol"a, kitabça və vərəqələr isə "Tütünçəkmədən imtinaetmə üzrə klinik protokol"a uyğun olaraq hazırlanmış və çap edilmişdir.

Yüksək poliqrafik keyfiyyəti ilə diqqət çəkən əyani vasitələr təkcə tibb işçiləri üçün deyil, həmçinin ictimaiyyət üçün də əhəmiyyətlidir. Belə ki, "Böyüklərdə bədən kütləsi indeksi", "Qan təzyiqi səviyyələrinin təsnifatı", "Qan təzyiqinin korreksiyasına dair tövsiyələr", "Tütünçəkmədən imtinaetmə üzrə alqoritm və 5A strategiyası", "Antitrombositar terapiya üzrə tövsiyələr", "Sağlam qidalanmanın xüsusiyyətləri" və digər materiallar sağlamlığının qədrini bilən hər bir kəs üçün, eləcə də səhiyyə maarifi üçün qiymətli məlumat mənbələridir.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

# Naxçıvanda “Rəssamların fırçasında qadın obrazı” mövzusunda rəsm sərgisi



*Martın 6-da Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə “Rəssamların fırçasında qadın obrazı” mövzusunda rəsm sərgisinin açılışı oldu.*

Açılış mərasimində çıxış edən Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva Beynəlxalq Qadınlar Gününün yaranma tarixi barədə danışdı.

Ülviyyə Həmzəyeva bildirdi ki, dünyada qadınların kişilərlə bərabər hüquqlara nail olmaları uğrunda mübarizəsinin tarixi 1857-ci il martın 8-dən başlanıb. Həmin tarixdə ABŞ-ın Nyu-York şəhərində toxuculuq sənayesində çalışan yüzlərlə qadın aşağı maaşa, uzun iş saatlarına, pis əmək şəraitinə etiraz olaraq tətil keçiriblər. O zaman polis aksiyanın davamlı olmasına icazə verməyərək nümayişi dağıdıb. 1910-cu ildə – Nyu-York hadisələrindən 52 il sonra Danimarkanın Kopenhagen şəhərində keçirilən Qadın Sosialist İnternasionalının Qurultayında inqilabçı Klara Setkin hər il martın 8-nin Dünya Qadınlar Günü kimi qeyd olunmasını təklif edib və bu təklif qəbul edilib.

Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri qeyd etdi ki, Azərbaycan tarixinə nəzər salsaq, cəmiyyətin inkişafının bütün mərhələlərində qadınların kişilərlə bərabər dövlət quruculuğunda, siyasi qərarların verilməsində fəal iştirak etdiyinin şahidi olarıq. Bu, Manna, Atropatena, Atabəylər, Səfəvilər dövlətlərində də belə olub. Təsadüfi deyil ki, Azərbaycan Xalq Cümhuriyyəti dövründə ilk dəfə olaraq ölkəmizdə müsəlman Şərqində qadına seçmək və seçilmək hüququ verilib.

“Ümummilli lider Heydər Əliyev istər sovet dönəmində, istərsə də müstəqillik illərində respublikamıza rəhbərliyi dövründə Azərbaycan qadınlarının problemlərinin həllinə, onların ölkənin siyasi, sosial, iqtisadi və mədəni həyatında rolunun artırılması məsələlərinə böyük diqqət yetirib”, – deyən Ülviyyə Həmzəyeva qeyd etdi ki, ulu öndərin yolunu uğurla davam etdirən Prezident cənab İlham Əliyev bu gün dövlət qadın siyasətinin daha böyük nailiyyətlərlə icrasını təmin edib. Bu siyasət Naxçıvan Muxtar Respublikasında da uğurla həyata keçirilir. Bu gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 45 deputatından 6-sı qadındır. Qadınlar bütün dövlət strukturlarında, özəl bölmədə uğurla çalışır, nailiyyətlər qazanırlar.

Daha sonra sərgiyə baxış oldu.

İştirakçılar Ülviyyə Həmzəyevanın “Avtoportret”, “Şad günlər”, Həbibə Allahverdiyevanın “Zəriflik”, Qəhrəman Tağıyevin “Şairə qızın portreti”, Eldar Zeynalovun “Aişə” və digər rəsm əsərlərinə maraqla baxdılar.

Sərgidə 27 naxçıvanlı rəssamın 60-dək rəsm əsəri nümayiş etdirilir.

✍ **Rauf ƏLİYEV**

*Yeni nəşrlər*

# Hər kəsin özünü tapa biləcəyi kitab –




***Naxçıvan Dövlət Universitetində magistratura təhsili alarkən III-IV kurs “Azərbaycan dili və ədəbiyyat” ixtisası tələbələrinə dərs deyirdik. 408-ci auditoriyanın girişində, elə qapının yanında ön cərgədə əyləşən bu qızın praktika keçən biz magistrantlara ünvanladığı sualların arxasında əgər o vaxt özünü savadlı göstərmə məqamları axtarırdımsa, bu gün onunla eyni müəssisədə bir yerdə işləyəndən sonra ovaxtkı təxminlərimdə yanıldığını etiraf etməliyəm.***

Həmin dövrdə Şərq və Qərb ədəbiyyatı ənənələrinin müqayisəsi kimi bizə ünvanladığı suallar dünya ədəbiyyatına uşaqlığından maraq göstərməsinin, bir çox məşhur xarici romanları oxumasının nəticəsi imiş.

Bütün bunları bu ilin əvvəlində Bakıda “Qanun” nəşriyyatında dərc olunan “İçimdəki Merilin” kitabını oxuyandan sonra bir daha xatırlamalı oldum.

Nargis (Nərgiz İsmayılova) həm özünün fərqli təqdimatıyla, həm də kitabına seçdiyi adla sözümün əvvəlində bəhs etdiyim fərqliliyini bir daha ortaya qoydu. Əslində, buna fərqlilikdən daha çox başqalarından seçilmək də demək olar. Bir insan isə başqalarından, sadəcə, özünəməxsus olan yaradıcı istedadıyla seçilə bilər ki, o da məhz öz yaradıcı istedadıyla fərqli şəkildə özünü ədəbi ictimaiyyətə təqdim etdi.

İlk kitabı ilə oxucuların görüşünə gələn müəllif buna qədər müxtəlif saytlarda öz imzasını artıq tanıtdırmış, sevdirmişdi.

“İçimdəki Merilin”, sadəcə, bir hekayəsindən götürülüb sərlövhəyə çıxarılmış kitab adı deyil. Həm də dünya musiqi və kino tarixinin indi də qibtəylə, heyranlıqla pərəstiş etdiyi bir dünya ulduzuna vurğunluğun və bu vurğunluqdan gələn hörmət və ehtiramın, ona bənzəmək istəyinin yox, onun kimi fərqli düşüncələrə sahib olmağın sadə izahıdır.

Bir çoxunun ilk oxucusu olduğum, ümumilikdə isə hələ kitab halına gəlməmişdən əvvəl ayrı-ayrılıqda oxuduğum bu hekayə, esse və pritçaları bir bütöv halında təkrar oxuyandan sonra bu qənaətə gəldim ki, “İçimdəki Merilin” həm də fərqli düşünən müəllifin həmcinslərinə açıq demək istəmədiyi şifrəli mesajıdır.

Bax bu mesaj vasitəsilə Nərgiz İsmayılova öz oxucularına demək istəyir ki, içinizdəki fərqli düşüncələri ifadə eləməkdən çəkinməyin və elə düşünməyin ki, sizin içinizdə boy göstərən həmin arzular, istəklər, fikirlər cəmiyyət tərəfindən tərslənəcək, əks reaksiya ilə qarşılanacaq.

Bu kitab həm də içindəki fərqlilikləri qorxudanmı, ictimai qınaqdanmı gizlətməyə çalışan həmin insanlara “cəsarətli olmağı bacarın” diləyidir, “özünüzü ifadə eləməkdən çəkinməyin” xahişidir, arzusudur. Bütün bunlar bir şəxsin – müəllifin timsalında oxuculara təlqin olunan həyat hadisələrinin bədii-poetik təcəssümüdür.

Müəllifin hər yazısını oxuduqca hadisələrin mərkəzində sanki özünün dayandığını düşünürsən. Bu cür olmasa belə, müəllifin uğurudur ki, o yazdıqlarında hadisələrin mərkəzində olduğu düşüncəsini yarada bilir və oxucu da müəllifin hadisələr boyu cərəyan edən yaşantısını izlədiyini zənn edir. Bunu istər “Alkandabalı oğlan” hekayəsində sürücü-turistin, istər “Oğrular dəstəsində bir həftə” keçirən qızın, istər “Bəyaz kəpənək”dəki yeniyetmə qızcığazın, istərsə də “Gecənin rəfiqəsi”nin və digərlərinin yaşantılarıyla tanış olduqca düşünməli olursan.

Bir həqiqət də var ki, hər kəs yazdıqlarında öz obrazını yaradır. Ya da obrazlarına özündən detallar yükləyir, xarakter köçürür. Özünü anlatmaq istəyi həmişə olub yazar əhlində. “İçimdəki Merilin”də də Nərgizin bəzən həyat yaşantıları, bəzən xarakter cizgiləri, bəzən düşüncə sferası, bəzən də ətrafında müşahidə elədikləri boyasız-filansız oxucuya təqdim olunur. Amma bu boyasız-filansız yazılarda həmişə bədii çalarlar, poetik rənglər daha çox diqqət çəkir.

Bu hekayə, esse və pritçalarda obrazın olmaması da qeyri-ənənəvi təsir bağışlayır. O, öz obrazlarına adlar vermir, ümumiləşdirir. Onun obrazlarına baxaq: Rasim, İqor, Mələk xala və gürcü oğlan Caba istisna olmaqla, digər yazılarının qəhrəmanları Qadın, Kişi, Oğlan, Körpə, Mən, Müəllim, Baba, Rəfiqə, Rejissor, Qonşu, Gəlin, Qızcığaz, Həkim, Adam bu qəbildən olan hər kəsdir...

Mənə elə gəlir ki, müəllif həm də bir ədəbi priyom işlədir. Yazdıqlarında hər kəsin özünü tapa bilməsini arzulayır. Buna da nail olduğuna əminəm.

Nərgiz İsmayılovanın hekayələrinin dili də qeyri-adi bir səlisliyə, axıcılığa malikdir. İstər dialoqlarında, istər monoloqlarında, istərsə də müəllif təhkiyəsində bu, özünü göstərir. “Bəyaz kəpənək”, “Günahkar idi yarpaqlar”, “Keçməyən keçmişimizin şərəfinə”, “Vicdanımın qəddi bükülmüşdü”, “Tapdalanan göz yaşı”, “Bir qədəh yalnızlıq”, “Boşluğun tragediyası” və digər nəsr əsərlərində Nərgiz birbaşa ürəklərə xitab etdiyi üçün fərqli üslublu axıcılığıyla oxucunu kitabı bitirmədən ondan ayrılmağa imkan vermir.

İnanıram ki, Nərgiz İsmayılovanın (Nargisin) timsalında ədəbi mühitimiz yeni və uğurlu bir imza qazandı. Nəsrimiz isə insan xarakterləriylə zəngin olan bu kitabdan sonra müəllifi həmişə axtaracaq.

Yazar həmkarımı, Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsində çalışan tədqiqatçı həmkarımı “İçimdəki Merilin” kitabı münasibətilə təbrik edir və inanıram ki, bundan sonra biz onun daha irihəcmli əsərlərini oxuyacağıq. Hətta bir az irəli gedib bu barədə oxuculara indidən söz verə bilərəm ki, qısa vaxtda o, bizi öz romanı ilə daha da heyrətləndirəcək.

**Elxan YURDOĞLU**

***Naxçıvanda keçirilən idman tədbirlərinin bir məqsədi var: muxtar respublikada bu sahəni inkişaf etdirmək və kütləviləşdirmək. İdman sahəsində ötən ayın ən əlamətdar hadisəsi olan – fevralın 21-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində “Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr” mövzusunda keçirilən müşavirədə Ali Məclis Sədrinin mövzu ilə bağlı verdiyi konkret tapşırıqlar bu sahənin inkişafına mühüm töhfələr verməkdədir.***

*İdman icmalı*

# Əsas məqsəd idmanın kütləviliyinə nail olmaqdır



Naxçıvan Muxtar Respublikasında idmanın inkişafı üçün qurulan infrastruktur, yaradılan şərait artıq öz bəhrələrini verməkdədir. Ötən aylarla müqayisədə geridə qoyduğumuz ay daha çox ölkə daxilində qazanılan uğurlarla yadda qaldı. Ümumiyyətlə, 2015-ci ilin ilk iki ayını “boks ayı” adlandırsaq, səhv etmərik. Naxçıvan boks tarixində yeni səhifənin yazıldığına “şahidlik” edən yanvar ayında olduğu kimi, fevralda da boksçularımız yenə ölkə rinqlərində rəqib tanımadıqlarını bir daha nümayiş etdirdilər. Belə ki, 15-21 fevral tarixlərində Bakı şəhərində gənclər arasında boks üzrə Azərbaycan birinciliyi keçirildi. Bu birincilikdə Naxçıvanı 8 dəri əlcək sahibi təmsil edirdi ki, onların da arasında bütün diqqətlər yanvar ayında kişilər arasında boks üzrə Azərbaycan çempionu olan və Avropa Oyunlarına vəsiqə qazanan Tayfur Əliyevə yönəlmişdi. Bu dəfə 56 yox, 60 kiloqram çəki dərəcəsində rinqə çıxan boksçumuz hakimlərin qərəzli mövqeyi nəticəsində yalnız həlledici görüşdə “məğlubiyyət ilə qarşılaşdı”. Halbuki finalı qələbə ilə başa vuracağı təqdirdə Tayfur Əliyev Azərbaycan boks tarixində ilkə imza atacaqdı. Buna baxmayaraq, 56 kiloqram çəki dərəcəsində mübarizə aparan Sərxan Əliyev ilk dəfə çıxış etdiyi gənclərin birinciliyində qızıl medalı boynuna asmağa müvəffəq oldu. 91 kiloqram çəki dərəcəsində isə Nihad Orucov yalnız finalda məğlub olaraq ikinciliklə kifayətləndi.

Boksdan söz düşmüşkən, Naxçıvan Muxtar Respublikası Boks Federasiyası geridə qoyduğumuz ayda İlham Əliyev adına Olimpiya-İdman Kompleksində Xocalı Soyqırımı Gününə həsr olunmuş yeniyetmələr arasında Naxçıvan şəhər birinciliyi təşkil etdi. İdmanın bu növünün kütləviliyinə nail olunması məqsədilə Boks Federasiyasının təşkil etdiyi birincilikdə 50-dən çox dəri əlcək sahibi mübarizə apardı.

Ümumiyyətlə, fevral ayında təşkil olunan yarış və turnirlərin böyük əksəriyyəti Xocalı soyqırımına həsr olunmuşdu. Belə tədbirlərdən biri də Güləş Federasiyası ilə Gənclər və İdman Nazirliyinin birgə təşkil etdiyi yeniyetmələr arasında sərbəst güləş üzrə Naxçıvan şəhər birinciliyi idi. Adıçəkilən yarışda 70-dən çox pəhləvan qüvvəsini sınamaqla həm də bu növün geniş yayıldığını göstərmiş oldu.

Fevral ayında Naxçıvan şəhərində keçirilən və Xocalı soyqırımına həsr olunan digər yarış Naxçıvan Şahmat Mərkəzindəki birincilik idi. Bu dəfə şahmat üzrə tempo turnirində 42 zəka sahibi qüvvəsini sınadı. Naxçıvan Dövlət Universitetinin idman zalında isə ali və orta ixtisas təhsili müəssisələrinin oğlan tələbələri arasında voleybol üzrə Naxçıvan şəhər birinciliyində 6 komanda mübarizə apardı ki, 72 voleybolçu bu turnirin iştirakçısı kimi meydana çıxdı. Analoji turniri Yüngül Atletika Federasiyası da təşkil etdi. Duzdağ yolunda Heydər Əliyev adına Hərbi Liseyin kursantları arasında kross qaçışında 100-dən çox idmançı finiş xəttini birinci keçməyə çalışdı.

Naxçıvan şəhərində keçirilən tədbirlərlə yanaşı, muxtar respublikanın rayonlarında da, həmişə olduğu kimi, idman yenə diqqət mərkəzində olub. Geridə qoyduğumuz ayda Ordubad rayonunda Xocalı soyqırımına həsr olunmuş yeniyetmələr arasında basketbol üzrə Ordubad və Culfa rayon komandaları arasında, Şərur rayonunda isə Naxçıvan şəhər və Şərur rayon komandaları arasında kikboksinq üzrə yoldaşlıq görüşləri keçirilib. Keçirilən bu yarışlarda 100-ə yaxın idmançı iştirak edib.

Fevral ayını Naxçıvan Muxtar Respublikası Şərq Döyüşü Sənəti Federasiyası üçün də uğurlu hesab etmək olar. Yerli turnirlər təşkil etməklə yanaşı, federasiyanın bir idmançısı beynəlxalq yarışda uğur qazanmaqla bizi sevindirib. Belə ki, İran İslam Respublikasının Urmiya şəhərində peşəkarlar arasında kikboksinq üzrə beynəlxalq turnirdə 70 kiloqram çəki dərəcəsində mübarizə aparan Cavidan Rəcəbli bütün rəqiblərini məğlub edərək fəxri kürsünün ən yüksək pilləsində qərar tutub.

Göründüyü kimi, bu gün gənclərin sağlam və fəal həyat tərzini təşviq etmək və onların cəmiyyətə inteqrasiyasını təmin etmək muxtar respublika idman ictimaiyyətinin qarşısında qoyulan əsas vəzifələrdən biridir. Muxtar respublikada idman infrastrukturu mütəmadi olaraq yeniləşdirilir, bədən tərbiyəsi və idmanın sistemli inkişafını dəstəkləmək məqsədilə muxtar respublikanın şəhər və rayonlarında bədən tərbiyəsi və idmanın inkişafına xüsusi diqqət ayrılır. Fevral ayında keçirilən tədbirlər, yarışlar bunun əyani göstəricisidir.

✍ **Ceyhun MƏMMƏDOV**

**ŞƏRQ qapısı**
**Baş redaktor:** TURAL SƏFƏROV

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Muxtar Məmmədov
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*
Tiraj: 4020. Sifariş № 207